

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 58 (21.468)

*1 aprel 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının dövlət katibi Con Kerri ilə görüşüb.

Görüşdə ABŞ-ın dövlət katibi Con Kerri Birləşmiş Ştatların Azərbaycan ilə güclü və uzunmüddətli əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirib. O, Azərbaycanda gedən iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi proseslərinin ABŞ-da maraqla izlənildiyini vurğulayıb.

Prezident İlham Əliyev Azərbaycanda iqtisadi sahədə görülən işlərdən, əsas iqtisadi prioritetlər – kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, vergi və gömrük, infrastruktur sahələrində həyata keçirilən islahatlardan danışıb. Dövlətimizin başçısı iqtisadi inkişafın qanunvericilik proseslərində Azərbaycanın beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminində rolu qeyd edilib, ABŞ-ın bu işdə ölkəmizə verdiyi dəstək yüksək qiymətləndirilib, "Cənub Qaz Dəhlizi" layihəsinin önəmi vurğulanıb.

* * *

Martın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının ticarət naziri xanım Penni Pritzker ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının bir sıra konqresmenləri ilə görüşüb.

## Xatirə Muzeyində keçilən açıq dərsi muxtar respublikanın 200-ə yaxın məktəbindən izləyiblər

***Dünən Naxçıvan şəhərindəki Xatirə Muzeyində "31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür" mövzusunda açıq dərs keçilib. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar və Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə keçilən açıq dərsdə muxtar respublikanın 200-ə yaxın məktəbi ilə Xatirə Muzeyi arasında interaktiv əlaqə yaradılıb.***

Açıq dərsdə muzeyin direktoru Aynur Məhərrəmova şagirdlərə məlumat verərək bildirib ki, ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının xalqımıza qarşı törətdikləri dəhşətli cinayətlərin izləri buradakı eksponatlarda öz əksini tapıb. Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhid olmuş qəhrəmanlarımızın fotoşəkilləri, şəxsi əşyaları və sənədləri, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir. Muzeydə eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi bura gələnlərin, xüsusilə gənc nəslin qəhrəmanlıq tariximiz haqqında ətraflı məlumat almasına imkan verir, onların bu ruhda böyümələrinə müsbət təsir göstərir.

Qeyd olunub ki, ötən əsrdə mənfur ermənilər onlara himayədarlıq edənlərin dəstəyi ilə xalqımıza qarşı bir neçə dəfə soyqırımı aktı həyata keçiriblər. Bu faciələrdən miqyasına görə ən böyüyü 31 mart soyqırımıdır. 1918-ci ilin martında törədilmiş bu qanlı faciə paytaxt Bakı şəhəri də daxil olmaqla, ölkəmizin bir sıra regionlarını, o cümlədən muxtar respublikamızı da əhatə edib. 1905-1907, 1918-1920, 1988-1992-ci illərdə xalqımıza qarşı soyqırımı törədilməsində əsas məqsəd torpaqlarımızın işğalı və "böyük Ermənistan" dövlətinin yaradılması idi. Hazırda muzeydə bu faciəli hadisələri özündə əks etdirən müxtəlif fotoşəkillər, xəritələr və sənədlər nümayiş etdirilir.





*Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb*



*Culfa rayon Yaycı kənd 1 nömrəli tam orta məktəb*



*Heydərabad qəsəbə tam orta məktəbi*

Vurğulanıb ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri bu soyqırımı aktları və deportasiya ilə bağlı məsələyə ilk siyasi-hüquqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilib. Ulu öndər Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman bu baxımdan çox mühüm tarixi sənəddir.

Şagirdlərə məlumat verilib ki, dahi şəxsiyyət Heydər Əliyevin bu sahədəki fəaliyyətini ölkə Prezidenti cənab İlham Əliyev bu gün uğurla və qətiyyətlə davam etdirməkdədir. Hazırda dövlət başçısının rəhbərliyi ilə erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması, ölkəmizin haqq səsinin və ədalətli mövqeyinin dünya dövlətləri tərəfindən müdafiəsi istiqamətində məqsədyönlü iş aparılmaqdadır. Dövlətimizin iqtisadi və siyasi gücü artdıqca onun beynəlxalq nüfuzu da güclənir, Azərbaycanın haqlı mövqeyini müdafiə edən ölkələrin və beynəlxalq təşkilatların sayı artır.

Açıq dərsdə azərbaycanlılara qarşı ayrı-ayrı vaxtlarda həyata keçirilən soyqırımı və deportasiya siyasətinin acı nəticələrini özündə əks etdirən eksponatlar videobağlantı vasitəsilə şagirdlər tərəfindən izlənilib və müxtəlif bölmələrdə yerləşən eksponatlar haqqında müfəssəl məlumat verilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, eyni zamanda təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına hərtərəfli şərait yaradıb. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təşkili məqsədilə mərkəzi serverin qurulması, ümumtəhsil məktəblərinin və muzeylərin bu sistemə qoşulması məsafəli tədrisin, açıq dərslərin və dialoqların təşkilinə öz töhfəsini verib.

✍ **Səbuhi HƏSƏNOV**

***Son illər muxtar respublikada hər bir sahədə olduğu kimi, dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsi istiqamətində də xeyli işlər görülüb.***

## Səyyari xidmət fəaliyyətini genişləndirir

2015-ci il martın 7-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yeni yaradılan səyyari xidmət insanlara daha bir qayğının ifadəsidir. Səyyari xidmət üçün nazirliyə "Hyundai" markalı avtomobil alınıb. Avtomobil xidmət sahələrinə uyğun olaraq, səyyari xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilib.

Səyyari xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə hüquqi xidmətlər göstərilir. Xidmət avtomobilində quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportlarının, şəxsiyyət və sürücülük vəsiqələrinin yerlərdə vətəndaşlara təqdim olunmasına imkan verib.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyindən aldığımız məlumata görə, 2015-ci il ərzində səyyari xidmətə 6320 müraciət olub. Onlardan 5123-ü şəxsiyyət vəsiqəsi, 1155-i sürücülük vəsiqəsi, 29-u ümumvətəndaş pasportu, 2-si ov silahlarının qeydə alınması, 11-i məhkumluq arayışı almaq üçün müraciətlərdir.

Cari ildə də səyyari xidmət fəaliyyətini davam etdirir. Yanvar ayında Culfa, Babək, Sədərək rayonlarında 477 şəxsiyyət vəsiqəsi, 103 sürücülük vəsiqəsi, 18 məhkumluq haqqında arayış verilib. Fevral ayının 1-dən isə Şərur rayonunda vətəndaşlara səyyari xidmət göstərilməsinə başlanılıb. Fevral ayının 29-dan mart ayının 7-dək səyyari xidmət Ordubad rayonunun Yuxarı Əndəmic, Aşağı Əndəmic, Vənənd, Biləv, Aza kəndlərində olub, vətəndaşlara 57 şəxsiyyət, 25 sürücülük vəsiqəsi verilib. Mart ayının 7-dən 16-dək Culfa rayonunun Yaycı, Əbrəqunus, Əlincə, Göydərə, Xanəgah, Kırna, Ləkətağ kəndlərinin sakinləri səyyari xidmətin fəaliyyətindən yararlanıblar. Bu yaşayış məntəqələrində 115 şəxsiyyət, 27 sürücülük vəsiqəsi və 1 məhkumluq haqqında arayış verilib.

Mart ayında səyyari xidmət fəaliyyətini Babək rayonunda davam etdirib. Nehrəm, Qahab, Sirab, Kültəpə, Cəhri kəndlərində şəxsiyyət vəsiqəsi üçün xidmətə 174, sürücülük vəsiqəsi üçün 61 müraciət edilib. 1 nəfər birinci qrup əlilə ümumvətəndaş pasportu verilib. Dünən səyyari xidmət Vayxır kəndində olub.

## Dövlət Komitəsi üçün yeni bina inşa olunur



***Son illər Naxçıvan şəhərində müasir yaşayış binalarının, xidmət sahələrinin istifadəyə verilməsi ilə yanaşı, dövlət qurumlarının səmərəli fəaliyyəti də diqqət mərkəzində saxlanılır, yeni inzibati binalar tikilir. Bütün bu tədbirlər əməkdaşların yaxşı şəraitdə işləməsinə hesablanıb.***

Bu tədbirlərin davamı olaraq, Naxçıvan şəhərinin Cəlil Məmmədquluzadə küçəsində Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi üçün yeni bina inşa edilir. "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikilən bina zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olacaq. Burada inşaat işlərinə ötən ilin aprel ayında başlanılıb. Hazırda binanın birinci mərtəbəsində arakəsmələrin hörgüsü işləri aparılır, üçüncü mərtəbədə qəlibqurma işləri gedir.

Məlumat üçün bildirək ki, sözügedən komitə üçün inşa edilən yeni binada hər cür şəraitə malik iş otaqları, qurumun əhatə etdiyi sahələrə aid fondlar, mətbəə, arxiv, server otağı, 10 min ədəd kitab üçün nəzərdə tutulmuş elmi kitabxana, laboratoriya, 108 yerlik iclas zalı yaradılacaq, binanı qış aylarında fasiləsiz istiliklə təmin etmək üçün fərdi qazanxana quraşdırılacaq.

✍ **Səbuhi HÜSEYNOV**

***Muxtar respublikamızda strateji əhəmiyyətli məhsula – taxıla olan tələbatın daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, 2015-ci ildə 36 min 237 hektar sahədə taxıl əkini aparılıb ki, bu da 2008-ci ildə əkilmiş sahədən 2795,8 hektar çoxdur. 2015-ci ildə əkilmiş taxılın 26 min 746 hektarını buğda, 9491 hektarını isə arpa təşkil edib. Taxıl zəmilərindən 2015-ci ildə 106 min 282 ton məhsul tədarük olunub ki, bu da 2008-ci ilin məhsulundan 23 min 718 ton çoxdur. Taxılçılıqda yeni və məhsuldar toxum materialının tədarükü, becərmənin yüz faiz mexanikləşdirilməsi, gübrə normalarının tətbiqi, növbəli əkin dövriyyəsi, suvarmaların şırım üsuluna keçirilməsi məhsul istehsalının artımına geniş imkan yaradıb. 2008-ci illə müqayisədə taxıl əkini sahəsinin 8,4 faiz, məhsul istehsalının 28,7 faiz artımı taxılçılığın ekstensiv üsulla deyil, müasir aqrokimyəvi və aqrotexniki tədbirlərə əsaslanan intensiv metodlarla, yəni məhsuldarlığın yüksəldilməsi yolu ilə inkişaf etdirildiyini göstərir.***

## *“Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi”* Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti genişləndirilib





Muxtar respublikamızda taxılçılığın inkişafı, istehsalın artırılması belə məhsulların saxlanılması üçün anbarların qurulması zərurətini yaradıb, “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində 27 min ton tutuma malik uzunmüddətli və 20 min ton tutuma malik qısamüddətli taxıl ehtiyatı anbarları istifadəyə verilib. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, torpaq mülkiyyətçilərinin istehsal etdiyi taxılın alıcı sarıdan heç bir problemi yoxdur. Muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarlardan buğdanın hər kiloqramı 30 qəpikdən alınır ki, bu da taxılçılığa olan marağın daha da artmasına səbəb olur.

Məlumat üçün bildirək ki, strateji əhəmiyyətli məhsulun tədarük olunub keyfiyyətlə saxlanılması istiqamətində həyata keçirilən tədbirlər cari ildə də diqqət mərkəzindədir. Hazırda Naxçıvan şəhərində “Bərəkət” Toxumçuluq Təsərrüfatı üçün yeni kompleksin inşası davam etdirilir. Burada toxum, qüvvəli yem və xammal anbarları istifadəyə veriləcəkdir. Əvvəllər dəyirman kimi istifadə olunan bu ərazidə hər birinin tutumu 500 ton olan 48 bunker vardır. Təmir işlərindən sonra bunkerlər toxumun keyfiyyətlə və uzun müddətə saxlanılmasına imkan verəcəkdir.

Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər kənd təsərrüfatı bitkiləri toxumunun da satışı həyata keçiriləcəkdir.

“Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” MMC-də taxılın tədarük olunub saxlanılması ilə yanaşı, istehsalına da əlverişli şərait yaradılıb, yeni un dəyirmanı istifadəyə verilib. Gündəlik istehsal gücü 200 ton un olan dəyirmanda müasir texnoloji avadanlıqlar quraşdırılıb. Ayrı-ayrı sahələrdə olduğu kimi, un istehsalı sahəsində də regionumuzun perspektiv inkişafı nəzərə alınıb, un tələbatı 65 min tona yaxın olan muxtar respublikamızda illik istehsal gücü 73 min ton olan yeni un dəyirmanı yaradılıb. Bu dəyirman işlərin kompleks şəkildə həyata keçirilməsinə imkan verir. Belə ki, həm taxıl tədarük edilərək ehtiyat yaradılır, həm də un istehsal olunaraq muxtar respublika əhalisinin una, çörəyə olan tələbatı ödənilir.

Müəssisədə fəaliyyət göstərən dəyirmanın keyfiyyətli taxılla təmin olunmasına hər cür şərait yaradılıb. Dəyirmanda üyüdülən buğdadan 78 faiz un, 22 faiz kəpək alınır. Sifarişə uyğun olaraq, əla, I növ və qara un istehsal edilən dəyirmanda insan orqanizmi üçün vacib elementlərlə zəngin olan yeni çeşiddə kəpəkli un istehsalı da təmin olunub. Hazır məhsullar 1, 2, 5, 25 və 50 kiloqramlıq kisələrdə “Bərəkət” əmtəə nişanı ilə satışa çıxarılır.

“Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində heyvandarlıq və quşçuluğun inkişafında mühüm rol oynayan qarışıq qüvvəli yem istehsalı müəssisəsinin fəaliyyətə başlaması heyvandarlıq və quşçuluq təsərrüfatlarının inkişafında mühüm rol oynayıb.

Qarışıq qüvvəli yem istehsalı sahəsində Almaniya və Türkiyədən alınan, istehsal gücü saatda 3 ton olan müasir texnoloji avadanlıqlar və hər birinin tutumu 10 ton olan 4 ədəd bunker quraşdırılıb. Burada müxtəlif çeşiddə ətlik-südlük mal-qara və ətlik-yumurtalıq quş yemləri istehsalına başlanılıb. Lakin müəssisədə istehsal edilən qarışıq qüvvəli yem muxtar respublikamızda bu məhsula olan illik tələbatın 40 faizini ödəyirdi. Həmin məhsula olan tələbatın 100 faiz yerli istehsal hesabına ödənilməsi üçün dövlət maliyyə dəstəyi ilə qısa zaman ərzində yeni müəssisə yaradılıb. İstehsal gücü saatda 10 ton olan müəssisədə Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar və hər birinin tutumu 20 ton xammal olan 9 bunker quraşdırılıb. Beləliklə, heyvandarlıq və quşçuluq təsərrüfatlarının səmərəli fəaliyyətinə şərait yaradılıb, bu sahədə məhsul istehsalı artımına nail olunub. Muxtar respublikada fəaliyyət göstərən heyvandarlıq və quşçuluq təsərrüfatlarının yeni müəssisədə istehsal edilən qüvvəli yemlə təmin olunması əlavə xərclərin qarşısını alıb.

Onu da qeyd edək ki, muxtar respublikada ətlik-südlük heyvandarlıq və ətlik-yumurtalıq quşçuluq təsərrüfatlarının illik qüvvəli yemə olan tələbatı 70 min tona yaxındır. Bunun 50 min tonu ətlik-südlük heyvandarlıq, 20 min tonu isə ətlik-yumurtalıq quşçuluq təsərrüfatlarının payına düşür. Bu müəssisənin istifadəyə verilməsi ilə qüvvəli yemə olan tələbat 100 faiz ödənilib, idxaldan asılılıq tamamilə aradan qaldırılıb.

İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə keyfiyyətli məhsul istehsalı həyata keçirilir. Qarışıq yem istehsalı sahəsində xammal kimi taxıl emalı müəssisəsində istehsal zamanı əldə olunan yarımfabrikatlardan da istifadə olunur. Ayrı-ayrı mərhələlərdən keçməklə hazırlanan 4 çeşiddə məhsul 50 kiloqramlıq kisələrdə “Bərəkət” əmtəə nişanı ilə satışa çıxarılır.

Son illər Naxçıvan Muxtar Respublikasında yaradılan əlverişli biznes mühitindən bəhrələnərək daxili bazarın tələbatına uyğun yüksəkkeyfiyyətli məhsullar istehsal edən emal və sənaye müəssisələrinin sayı artmaqdadır.

Əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsi, idxaldan asılılığın azaldılması, yerli resurslardan səmərəli istifadənin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yarma istehsalı sahəsinin yaradılması başa çatdırılıb.

Yeni istehsal sahəsinin yaradılmasına Sahibkarlığa Kömək Fondundan 250 min manat, müəssisənin daxili imkanları hesabına 208 min manat olmaqla, ümumilikdə, 458 min manat vəsait sərf olunub. Sərf olunan vəsaitin 318 min manatı avadanlıqların alınmasına, 140 min manatı istehsal sahəsinin tikinti-quraşdırma işlərinə yönəldilib. Ümumi sahəsi 576 kvadratmetr olan müəssisədə son texnoloji nailiyyətlərə əsaslanan Türkiyə Respublikası mənşəli avadanlıqlar quraşdırılıb. İllik istehsal gücü 1497,6 ton olan yarma istehsalı sahəsində yüksəkkeyfiyyətli məhsul istehsalına əlverişli şərait yaradılıb. İstehsal olunan 3 çeşiddə yarma məhsulu 800 qram və 3 kiloqramlıq polietilen paketdə, 25 kiloqramlıq kisədə “Bərəkət” əmtəə nişanı ilə satışa çıxarılır. Onu da qeyd edək ki, indiyə kimi bu məhsula olan tələbat tamamilə idxal hesabına ödənilirdi.

Yeni istehsal sahəsinin yaradılması əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb, müəssisədə 10 yeni iş yeri açılıb. İşçilər pulsuz nahar yeməyi, xüsusi geyim forması və nəqliyyat vasitəsi ilə təmin ediliblər.

İstehsal edilən məhsulların daxili bazarda rəqabətə davamlılığının təmin edilməsi əsas hədəflərdəndir. Müəssisə tərəfindən istehsal olunan yarma məhsulu analoji idxal məhsulunun keyfiyyət göstəriciləri ilə müqayisədə daha yüksəkdir. Hazırda istehsal edilən məhsulun tanıdılması ilə əlaqədar tədbirlər davam etdirilir. İstehsal olunan yarma məhsulunun gələcəkdə xarici bazara ixrac olunması nəzərdə tutulur.

**Kərəm HƏSƏNOV**

## Kənd təsərrüfatının sığortası diqqət mərkəzindədir



***Ərzaq məhsulları istehsalı kənd təsərrüfatının qarşısında duran əsas vəzifədir. Muxtar respublikamızda kənd təsərrüfatının dayanıqlı inkişafı, onun çoxşaxəliliyinin təmin olunması istiqamətində aparılan tədbirlər müxtəlif bitkiçilik və heyvandarlıq məhsullarının istehsalına əlverişli şərait yaratmışdır.***

Kənd təsərrüfatı qayğıya həssas bir sahədir. Belə ki, ərzaq təhlükəsizliyi kimi mühüm məsələnin həllində torpaqlardan səmərəli istifadə olunması, torpaq mülkiyyətçilərinə müxtəlif sahələrdə dəstək göstərilməsi, anbarların yaradılması, satış yarmarkalarının təşkil olunması, maşın, mexanizm, gübrə təminatının yaxşılaşdırılması, məhsuldar sort və cinslərin yetişdirilməsi, aqrar sahə üzrə mütəxəssislərin, aqronom və baytarların hazırlanması daim dövlətin diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, kənd təsərrüfatı risklərə qarşı da həssas olub digər sahələrə nisbətən təbii amillərdən daha çox asılıdır. İstər bitkiçilik, istərsə də heyvandarlıq məhsullarının istehsalında, habelə hazır məhsulun daşınması və anbarlanması zamanı yaranan qəfil, gözlənilməz hadisələr – yanğın, dolu, sel, daşqın, fırtına, şaxta və ildırım vurması, partlayış, elektrik cərəyanının təsiri, gün, yaxud istivurma, zəlzələ, uçqun, sudaboğulma, ilanların, yaxud digər zəhərli həşəratların sancması, dərəyədüşmə və başqa zədələnmələr kənd təsərrüfatı ilə məşğul olan vətəndaşları və fermerləri çətin vəziyyətə sala bilər. Bu da, öz növbəsində, kənd təsərrüfatı sığortasını aktual edir.

Müasir dövrdə etibarlı sığorta sistemi kənd təsərrüfatının inkişafının mühüm şərtlərindəndir. Həyata keçirilən müxtəlif sığorta növləri ilə bərabər, kənd təsərrüfatının da sığorta olunması baş verə biləcək müxtəlif qəfil hadisələr nəticəsində bu sahədə dəymiş zərərlərin əvəzinin ödənilməsinə təminat verir. Martın 29-da “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində Naxçıvan Muxtar Respublikasında aqrolizinq sahəsində fəaliyyətin təşkili və yaz-tarla işlərinə hazırlığın vəziyyəti ilə əlaqədar keçirilən səyyari müşavirədə Ali Məclisin Sədri tərəfindən muxtar respublikada əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının sığortalanmasının təmin olunması tapşırığı verilmişdir. Qarşıya qoyulan vəzifə kənd təsərrüfatı sahəsində uğurlu nəticə əldə olunması üçün görülən kompleks tədbirlərin mühüm bir hissəsi kimi həmişə aktualdır.

Sığorta hadisələri hesab olunan təbii fəlakətlər və yaxud digər hadisələr kənd təsərrüfatına zərər vurur. Məsələn, yağan şiddətli dolu və ya qəfil fırtına ərazidəki bir neçə evə, yaxud digər tikililərə zərər vurduğu kimi, bundan yüz hektarlarla əkinlər, çox sayda meyvə ağacları və ya istixanalar da zərər görər, kənd təsərrüfatı məhsulları məhv olar, kənd təsərrüfatı təyinatlı bina, maşın və avadanlıqlar yararsız hala düşə bilər. Belə hadisələrdən zərər görən kənd təsərrüfatı sahələrinin yenidən bərpa olunması isə nisbətən uzun bir müddət tələb edir. Güclü küləyin dağıtdığı evin dam örtüyü qısa bir müddətdə bərpa olunsa da, taxıl zəmisini, yaxud illərlə ərsəyə gələn meyvə ağaclarını dərhal yerinə qaytarmaq mümkün deyildir. Ona görə də burada dəymiş zərərə görə verilən sığorta ödənişləri kənd təsərrüfatı ilə məşğul olanlar üçün çox vacibdir.

Hazırda mövcud qanunlara görə, kənd təsərrüfatında əkinlər və kənd təsərrüfatı heyvanları təbii fəlakətlərlə yanaşı, xüsusi təhlükəli ziyanvericilərin yayılmasından və hücumundan, yoluxucu xəstəliklərdən, habelə üçüncü şəxsin qəsdən hərəkətlərindən də sığortalanır. Bu sığorta növündə kənd təsərrüfatı təyinatlı bina, tikili, qurğu və avadanlıqlar, habelə fermerlərə lizinq yolu ilə verilmiş kənd təsərrüfatı texnikası olan maşın və mexanizmlər, nəqliyyat vasitələri isə qəza hadisələrindən sığortalanırlar. Həmçinin aqrolizinq yolu ilə muxtar respublikamıza gətirilmiş və sahibkarlara verilmiş cins malların da dövlət sığorta orqanları tərəfindən sığortası aparılır. Bunlardan əlavə, sığorta olunan digər kənd təsərrüfatı obyektləri kənd təsərrüfatı bitkilərinin məhsulları, iribuynuzlu və xırdabuynuzlu kənd təsərrüfatı heyvanları, quşçuluq təsərrüfatları, arı ailələri hesab olunurlar. Kənd təsərrüfatında sığortanın belə geniş məzmunda təşkilinin məqsədi istehsalçıların mənafelərinin qorunması, onların fəaliyyətinin stimullaşdırılmasıdır.

Kənd təsərrüfatında sığortanın stimullaşdırılmasına maliyyə yardımının mühüm əhəmiyyəti vardır. Belə ki, mövcud qanunlara əsasən, ölkəmizdə buğda, arpa, qarğıdalı, dən üçün günəbaxan, kartof, şəkər çuğunduru, göyərti istisna olunmaqla, tərəvəz sahələrinin məhsulları yanğın, dolu, sel, daşqın, şaxta kimi hadisələrdən sığortalanan zaman bağlanılan sığorta müqavilələrində hesablanmış sığorta haqlarının 50 faizi dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Kənd təsərrüfatında məhsulun və əmlakın sığortası hazırda könüllü formada həyata keçirilir. Burada sığortanın şərtləri və aparılması qaydaları qanunvericiliyə uyğun olaraq sığortaçı ilə sığortalı arasında bağlanan sığorta müqaviləsində müəyyən edilir. Digər sığorta növlərində olduğu kimi, burada da sığorta tarifləri sığorta hadisələri nəzərə alınmaqla sığortaçı tərəfindən müəyyənləşdirilir. Ayrıca olaraq ölkəmizdə bu sahədə mövcud olan qaydalara istinad edərək kənd təsərrüfatı işləri ilə məşğul olan istər sahibkar fermerlərin, istərsə də sadə torpaq mülkiyyətçilərinin hazır məhsulunun və mülkiyyətinin sığortalanması zamanı sığortahaqqı və sığorta ödənişlərinin müddəti və həcmi, habelə sığorta müqavilələrinin bağlanılma qaydaları və sığortaçı ilə sığortalının hüquq və vəzifələri haqda dəqiq məlumatlar əldə etmək olar. Məsələn, əmlakını ardıcıl olaraq üç və daha artıq illər ərzində tam dəyərində sığorta etdirmiş, lakin sığorta ödənişi almamış sığortalılara hesablanmış sığortahaqqından 3 il müddətinə 10 faiz, 4 il müddətinə 20 faiz, 5 il və daha artıq müddətə 30 faiz güzəştlər verilir.

*Göründüyü kimi, kənd təsərrüfatı sığortası geniş imkanlar vəd edən bir sahədir. Ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasında bu məsələyə ciddi diqqət ayrılır. Bu həm də fermerlərin əmək fəaliyyətinin daha rahat olması üçün çox vacibdir. Fermerlərin əmlakı, məhsulu və aldıqları kreditlərin sığortalanması onların biznesinin uğuruna təminat verir.*

**Əli CABBAROV**

***Tarixən diyarımızın yaşayış məntəqələrində qala qapıları, çeşmələr, meydanlar, məscidlər, bazarlar əhalinin sıx toplaşdığı məkanlar kimi yadda qalıb. Təsadüfi deyildir ki, bu gün şifahi xalq ədəbiyyatı nümunələrində "çeşmə başı", "qala qapısı", "bazar meydanı", "məscid həyəti" və başqa bu kimi bir çox ifadəyə tez-tez rast gəlinir. Elə tarixin müxtəlif dönəmlərində tikilən hamamlar o yerin sakinləri üçün rahatlığın, təmizliyin, mənəvi istirahətin məkanları sayılmaqla bərabər, ünsiyyət qurmanın, maraqlı söhbətlərin, dünyanın gəldi-gedəri haqqında müzakirələrin də ünvanı olub. Müxtəlif xalqlarda olduğu kimi, bizim də folklorumuzda hamamla bağlı deyimlərin, atalar sözlərinin, mahnıların, şeirlərin olması bizdə hamam mədəniyyətinin qədim tarixi olduğunu göstərir.***

*Memarlıq inciləri*

# Şahtaxtıdakı tarixi abidəmizin sirri

Azərbaycanlı alim və tədqiqatçıların apardığı araşdırmalardan da məlum olur ki, ilk hamamların yaranması türkdilli xalqların formalaşması prosesinə təsadüf edir. Tarixçilərin əksər araşdırmalarına görə, ilk fərdi və ictimai hamamlar Şərq ölkələrinə, eləcə də Azərbaycana aid olub. Bəzi tarixi mənbələrə görə, hamam mədəniyyəti türklərin qədim əcdadlarından başlayıb. Məsələn, tarixi qaynaqlardan birində şumer xaqanı Bilqamısın xüsusi bir yerdə su ilə yuyunmasına dair məlumatlar var.

Naxçıvanda fərdi və ictimai hamamların əhatə etdiyi ərazilərin genişlənməsi İslam dininin yayılmasından sonra daha geniş vüsət alıb. Təmizlik İslam dinində müsəlmanlığın təməl prinsiplərindən olduğundan ibadət edən insanların suya, eləcə də fiziki cəhətdən paklanmağa ehtiyacı olması səbəbindən quyular, bulaqlar, kəhrizlər, eləcə də suya böyük tələbat olduğu hamamlar mühüm əhəmiyyət daşımağa başlayıb. Su quyularının və hamamların günümüzə çox az hissəsi gəlib çatsa da, bu gün Naxçıvan şəhərində, eləcə də bölgələrimizdə onlarla kəhriz vardır.

Sütunları və günbəzi olan qədim hamamlarda, adətən, bir neçə hücrələr inşa edilib. Həmin otaqlar ayrı-ayrılıqda paltarların soyunub-geyinilməsi, onların saxlanılması, yuyunma, müxtəlif dəri xəstəliklərinə görə təbii bitkilərdən hazırlanmış məlhəmlərin qoyulması məqsədinə xidmət edib. Vaxtilə Naxçıvan hamamlarında mövcud olan xidmətlərin arasında çimməkdən əlavə, müxtəlif yağlardan istifadə etməklə indi adı müasirləşdirilib masaj deyə tanıdılan ovxalama da olub. Bu iş üçün hamamlarda xalq təbabətindən yaxşı anlayan xüsusi adamlar ayrılıb. Hamama gələn insanlar ovxalamadan fiziki və psixoloji yorğunluğu aradan qaldırmaq, bədənin müxtəlif nahiyələrində qan dövranını yaxşılaşdırmaq üçün istifadə ediblər. Belə məkanlarda insanların saçını kəsən, onlara xına, vəsmə və başqa təbii boyalar qoyan bərbərlər çalışıblar. Yuyunandan sonra insanlar xüsusi ılıq havası olan otaqda tərlərini soyudub, çay içə-içə dincələ biliblər. Sanitar və gigiyenik funksiyalarıyla yanaşı, Naxçıvan hamamları məhəllə sakinlərinin toplaşıb yeni xəbərləri müzakirə etdikləri yer kimi də tarixə düşüb.

### *Şahtaxtı kəndində bir şamla isidilən hamamın sirri*

Naxçıvanın müxtəlif yaşayış məntəqələrində tarixi ta qədimlərə gedib çatan hamamlar olub. Bunlar arasında elələri də olub ki, onlar haqqında əfsanələr, rəvayətlər dillər əzbərinə çevrilib. Onlardan biri də Kəngərli rayonunun Şahtaxtı kəndində yerləşən hamamdır. Kənd ağsaqqallarının dediyinə görə, bu hamam nə kömürlə, nə də odunla qızdırılıb. Bu hamamı qızdıran vurtut bircə şam olub. Rəvayətlərə görə, əsrlər öncə Şahtaxtı kəndindən dini təhsil almaq istəyən bir gəncin yolu İsfahana düşür və orada olduğu müddətdə XVII əsrin ən məşhur din xadimlərindən biri, ensiklopedik bilikli alim, türk əsilli Şeyx Bəhaəddin Əl Amili (Şeyx Bəhai) ilə tanış olmaq imkanı qazanır. Şeyx fiqh, hədis, təfsir, kəlam, əqaid kimi sırf dini elmlərlə yanaşı, həm də dünyəvi elmlər sahəsində misilsiz məharət sahibi olub. Onun hesab, həndəsə, astronomiya, coğrafiya sahələrində dəyərli araşdırmaları bütün Şərq aləmini öz ziyasına qərq edib. Şeyx Bəhai həm də nüfuzlu dövlət xadimi Səfəvi hökmdarı Şah Abbasın sevimli vəziri olub. Onun dünyanı heyrətləndirən ixtiralarından olan, alimə böyük şöhrət gətirən və haqqında əfsanələr danışılan daha bir əsəri – İsfahandakı şam ilə isidilən hamam Şahtaxtıdan dini təhsil üçün yola düşən adamı daha çox maraqlandırır. Hamamın zirzəmisinə heç kim buraxılmır, ancaq həmin adam işçi kimi bir müddət cüzi bir miqdarda pul qarşılığında hamamda çalışmağa başlayır və imkan tapıb bu hamamın sirrini öyrənə bilir. Bundan bir müddət sonra həmin şəxs Şahtaxtına qayıdıb ruhani fəaliyyətlə məşğul olur, eyni zamanda İsfahanda gördüyü hamamın eynisini tikdirir. Çox keçmir ki, bu hamamın şan-şöhrəti ətrafa yayılır, qonşu ölkələrdən belə, bircə şamla yanan bu hamamın sirrini açmaq üçün gəlirlər.

### *Əslində, bu hamamın işləməsinin sirri bircə şamın işığında gizlədilib*

Nisbətən yaşlı kənd sakinləri ilə söhbətlərimizdə müxtəlif fərziyyələr irəli sürüldü. Onların dediyinə görə, həmin ruhani guya hamamın su anbarının (buna xəznə deyirlər) altında adi bir şam qoyubmuş və bu şam gecə-gündüz yanaraq bütün xəznədəki suyu qızdırırmış. Ancaq bu hamamın sirrini açmaq üçün bizə İsfahanda Şeyx Bəhainin tikdirdiyi hamamın tarixçəsinə qısa nəzər salmaq kifayət edir. Alimlərin araşdırmaları nəticəsində hamamın fəaliyyət mexanizminin sirri, demək olar ki, tamamilə açılıb. Şeyx Bəhai suyu isitmək üçün şamın cüzi istiliyindən deyil, üzvi gübrələrdən yaranan yanar qazlardan istifadə edibmiş. Üzvi gübrələrdə gedən təbii proses nəticəsində tullantılardan metan qazı və kükürd oksidi ayrılırmış. Həmin qazlar saxsı borular vasitəsilə hamamın altındakı xüsusi fəzaya nəql edilir və burada yandırılırmış. Üstəlik, Şeyx Bəhai qazanxananı və suyu ötürən boruları aşağı əyarlı da olsa, qızıldan hazırlayıbmış. Metalların içində qızılın ən yüksək istilikkeçirmə qabiliyyətinə malik olması hamamın isidilməsində az enerji istifadəsinə səbəb olurmuş. Orada yanan şam isə hamamın isidilməsinin sirrini gizlətmək, bu möcüzəni görmək üçün gələnlərin sayını artırmaq üçünmüş. Çox güman ki, Şaxtaxtıdakı hamamda da eyni prinsip tətbiq olunmuş, əsl həqiqət şam işığında gizlədilmişdi.

Kənddə fəaliyyət göstərən Şahtaxtinskilərin ev-muzeyinin direktoru Ramiz Şükürov ilə söhbət zamanı dedi ki, hamamın XIX əsrin II yarısında İsa Sultan Şahtaxtlının babası İsa Sultan tərəfindən tikdirildiyi haqda məlumatlar olsa da, hamam binasını arxitektura quruluşuna görə daha qədim tarixi abidələr sırasına daxil etmək olar. Çox güman ki, hamam İsa Sultan tərəfindən bərpa edildiyi üçün onu XIX əsrə aid edirlər.

Burada apardığımız müşahidələr zamanı gördük ki, hamam düzbucaqlı formada, 20x10,5x6,4 metr ölçüdədir. Ümumi sahəsi 210 m² olan hamamın soyunma, yuyunma zalları, onlara birləşdirilən köməkçi otaqlar və ocaqxana üç sferik günbəzlə örtülüb. Su mənbəyinin yüksəkdə yerləşməsi hamamın su ehtiyacını asanlaşdırıb. Soyunma və yuyunma zalı bir-biri ilə kiçik tamburlar vasitəsilə birləşir. Onlardan birbaşa yuyunma zalına birləşik kiçik otağa giriş var. İsti və soyuq sulu hovuzlar da yuyunma zalına bitişikdir. Keçmişdə xəznənin su ehtiyacı saxsı borular vasitəsilə ödənilirmiş. Xəznə binanın cənub tərəfindədir. Yuyunma zalı və ona birləşik otaqların altından isti havanın kanalları keçir. Kanalın bir ucu ocağa, digər ucu isə bacaya birləşdirilib. Bacalardan biri ocağın üstündə, digər ikisi isə yuyunma və soyunma zallarının üzərindədir. Hamamın işlədiyi son dövrlərdə buranı isitmək üçün samandan istifadə edilib. Kənd sakinləri ilə söhbətlərdən belə məlum oldu ki, hamamı 2-3 bağ samanı yandıraraq isidərmişlər. Saman tez yanıb qurtarmasın deyə bacanın ağzını tıxarmışlar. Bu üsulla əlavə yanacaqdan istifadə etmədən hamam 2-3 gün fəaliyyət göstərərmiş. Keçən əsrin ortalarından hamamı mazutla qızdırmağa başlayıblar.

Hamam özünün ilkin quruluşunu və funksional xüsusiyyətlərini indi də qoruyub saxlayıb. Bir çox hamamlardan fərqli olaraq, Şahtaxtı hamamı yarım yeraltı hamam sayılır. Hamamın kəndin mərkəzində yerləşdirilməsinin bir neçə səbəbi var. Kənd sakinlərinin sözlərinə görə, keçmişdə bu hamam həm də kənd sakinlərinin istirahət yeri olub. Burada pəhləvanlar gücünü sınayıb, xalq tamaşaları göstərilib.

***P.S. Son illərdə tarixi abidələrimizin bərpasına xüsusi diqqət yetirilir, onlara yeni həyat verilir. Bu tədbirlərin davamı olaraq Naxçıvan şəhərinin Dədə Qorqud meydanında yerləşən XVIII əsrə aid İsmayılxan hamamı, Ordubad rayonundakı qədim Şərq hamamı bərpa olunub. Ötən ilin sonlarında Naxçıvan şəhərinin "Əlincə" məhəlləsində Şərq hamamının istifadəyə verilməsi bu baxımdan milli ənənələrə bağlılığın növbəti nümunəsi kimi qiymətləndirilir. Şərq hamamının istifadəyə verilməsi Naxçıvan şəhərinin Şərq özünəməxsusluğundakı yerini tamlığı ilə doldurmaqla yanaşı, şəhərimizin milli ənənələrə sadiqliyini də bir daha göstərmiş oldu. Əminliklə demək olar ki, Şeyx Bəhai hamamının əkizi ilə də tarixçilərimiz, mühəndislərimiz maraqlanacaq, bu bənzərsiz sənət nümunəsinin yenidən həyata vəsiqə almasında öz sözlərini deyəcəklər.***

**Səbuhi HÜSEYNOV**

# Sağlam ailə sağlam gələcəyimizdir

***Muxtar respublikada gənc ailələr arasında reproduktiv sağlamlıq və ailə planlaşdırılması, eləcə də qadınların ailədə üzərinə düşən vəzifələrin düzgün yerinə yetirilməsi məqsədilə maarifləndirmə tədbirləri davam etdirilir.***

"Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları" mövzusunda növbəti tədbir Ordubad rayonunun Gilançay Kənd Mərkəzində keçirilib. Tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova "Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu" mövzusunda çıxış edərək bildirib ki, muxtar respublikada qadınların sağlamlıqlarının qorunması diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə qəbul edilən "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı" uğurla icra olunur. Son illər muxtar respublikada onlarla feldşer-mama məntəqəsinin, eləcə də Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin istifadəyə verilməsi, müasir tibbi avadanlıqlarla təchiz edilməsi qadınların sağlamlığının qorunmasına zəmin yaradıb, ana ölümü sayının minimuma endirilməsinə gətirib çıxarıb. Hər bir yaşayış məntəqəsində olduğu kimi, Ordubad rayonunun Gilançay kəndində də yaşayan qadınların sağlamlıqlarının qorunması üçün dövlətimiz tərəfindən lazımi şərait yaradılıb. Dövlətimizin qadınlara göstərdiyi qayğı kimi qadınlarımız da öz ailəsinə qayğı ilə yanaşmalı, övladlarının layiqli vətəndaş kimi böyüdülməsinə çalışmalıdırlar.

Vurğulanıb ki, ailədaxili münasibətlər sisteminin düzgün tənzimlənməsi, ailənin xoşbəxtliyi bir sıra mühüm elementlərdən asılıdır. Bunlar olmadan sağlam ailə barəsində danışmaq mümkün deyil. Bunlardan ən birincisi ailədə ananın üzərinə düşən vəzifələri düzgün yerinə yetirməsidir ki, bu vəzifə çox böyük məsuliyyət tələb edir. İnsan ailədə dünyaya gəlir. Onun ilk sosial mühiti ailəsidir və əldə etdiyi ilk təcrübə və biliklər məhz anadan və ailənin digər üzvlərindən əxz etdikləridir.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq barədə slayd vasitəsilə tədbir iştirakçılarına məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

# Dövlət proqramı uğurla icra olunur

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"na uyğun olaraq məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin peşəkarlıq səviyyələrinin artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində kurs təşkil edilib.

Tədbiri komitənin aparat rəhbəri Zeynal Hümbətov açaraq adıçəkilən proqramın icrası ilə bağlı qarşıda duran vəzifələrdən danışıb.

Naxçıvan Müəllimlər İnstitutunun psixoloq-müəllimi Çapay Quliyev çıxış edərək bildirib ki, daun sindromu olan uşaqların erkən yaşlarında sağlam uşaqlarla birgə təlim-tərbiyə almaları onların inkişafına müsbət təsir göstərir. Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilər bu məsələlərə xüsusi diqqət etməli, belə uşaqları daim nəzarətdə saxlamalı, onların cəmiyyətə inteqrasiyası üçün digər uşaqlarla daha çox ünsiyyət qurmalarını təmin etməlidirlər. Daun sindromlu uşaqlarda beyinin ümumi inkişafdan qalması əqli cəhətdən geriliyə səbəb olur. Lakin daun sindromlu uşaqlar çox mehriban olurlar. Kiçik yaşlarından başlayaraq bu uşaqlarla təlim-tərbiyə işinin düzgün aparılması onların insanlarla tez bir zamanda ünsiyyət qurmalarına, hətta özlərinə qulluq etməyi də bacarmağına şərait yaradır.

Psixoloq qeyd edib ki, bağça tərbiyəçiləri bu uşaqlara qarşı səbirli olmalı, mülayim davranmalı, xüsusi məhəbbət göstərməli, onları normal uşaqlardan ayırmamalıdırlar. Bu qəbildən olan uşaqların valideynlərinə dəstək olmaq, uşaqlarda özünəinam hissi yaratmaq, gigiyenik və sadə özünəxidmət vərdişləri aşılamaq, onları əməyə istiqamətləndirmək, belə uşaqların digər yaşıdları ilə oyunlarda iştirakını təmin etmək məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi və metodistlərin əsas vəzifələri olmalıdır.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Maarifləndirici tədbir



*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində muxtar respublikada yaşayan və işləyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə maarifləndirici tədbir keçirilib.*

Əvvəlcə xidmətin əməkdaşı Rahib Kərimov çıxış edərək iştirakçılara tədbirin mahiyyəti haqqında məlumat verib, belə tədbirlərin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin maarifləndirilməsində əhəmiyyətindən söz açıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əkbər Novruzov çıxış edərək Azərbaycan xalqının adət-ənənələri haqda məlumat verib.

Bildirilib ki, adət və ənənələr bəşəriyyətin təkamül prosesini özündə əks etdirir. Adət və ənənələr bütün dövrlərdə cəmiyyətin sosial-mənəvi və mədəni tərəqqisinin göstəricilərindən biri kimi çıxış edib. Ən maraqlısı odur ki, adət-ənənələr, o cümlədən bayram və mərasimlər insan həyatının sosial-mənəvi tərəflərini özündə cəmləyib mühafizə edərək nəsildən-nəslə, eldən-elə, əsrdən-əsrə ötürə bilib. Adət bir xalqın keçmiş tarixi, onun həyat tərzi, dünyagörüşüdür. Elə buna görə də bəşər tarixinin müxtəlif dövrlərində adət və ənənələr dünya alimlərinin diqqət mərkəzində olub. Adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolunu danmaq olmaz. Azərbaycan tarixinin inkişafı zaman-zaman mədəniyyətimizin, adət-ənənələrimizin, elm və təhsilimizin, ədəbiyyatımızın tərəqqisinə səbəb olub. Xalqımız dövlətçilik tarixinə, ənənələrinə bağlı bir xalq olaraq o təməllər üzərində böyük mədəniyyət yaradıbdır. Ululardan bizə yadigar qalan bir çox adət və ənənələr var ki, onlar kiçik dəyişikliklərə uğrasalar da, özlərini qoruya biliblər. Bu gün də sözügedən adətlər, məişət və mədəniyyət hadisələri xalqımızın ümummilli dəyəri olaraq öz yerini qoruyub saxlayır.

Videoçarx vasitəsilə iştirakçılara adət-ənənələrimiz haqda geniş məlumat verildiyi tədbirdən sonra əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Naxçıvan Dövlət Tarix Muzeyində olublar.

**Xəbərlər şöbəsi**

## “Xahiş xəstəliyi”

## Yaxud asan işlərimizi bəzən necə çətinləşdiririk?

***Bəzən texnoloji icadlar sarıdan geridə qalsaq da, şübhəsiz, bir çox sahələrdə dünyanı heyrətləndirəcək müsbət keyfiyyətlərimiz vardır. Hardasa hələ də rast gəlinən bəzi vaxtı keçmiş vərdişlərə qarşı ümumi müqavimət və kəskin tənqidi münasibətimiz bu baxımdan yeni cəmiyyət quruculuğundakı uğurlarımızdandır.***

Bəs nədir bu vərdişlər və onlar necə yaranıb? Bunlara heç bir vəchlə adət deyə bilmərik. Çünki bizim elə həmişəyaşar gözəl adət-ənənələrimiz vardır ki, təkcə onların dünyaya nümayişi ilə hər il milyonlarla turistin marağını cəlb edə bilərik. Vətənə, valideynlərə məhəbbət, insana sonsuz sevgi, hər bir xalqın nümayəndəsinə tolerant münasibət, dostluğa sədaqət, qonağa hörmət, qadına, ahıla diqqət, ailəyə-uşağa qayğı bizim əsl milli sərvətimizdir. Azərbaycanlılar vətəninin təəssübünü mal-dövlətdən, puldan-qızıldan həmişə üstün tutmuş, bu keyfiyyətləri dünyaya yaymışlar. Odur ki, bəzən kimlərdəsə rast gəlinən bəzi xoşagəlməz hallar bir “xəstəlik” kimi belə gözəl milli keyfiyyətlərimizin arasında dərhal gözə çarpır, aid oldu-olmadı hər kəsi narahat edir.

Götürək elə bu “xahiş xəstəliyi”ni. Deyəcəklər ki, bəs bu da haradan çıxdı? İndi fəsillərin dəyişdiyi bir vaxtda bəzi yoluxucu xəstəliklər peyda olsa da, hamı bir minval ilə onlardan qorunur. Şükür olsun ki, havalar da düzələn kimi belə naxoşluqlar öz-özünə çəkilib gedir, adamlar rahat olur. Amma bir vaxtlar bəzi sahələrdə, məsələn, təhsilimizdə adamları narahat edən elə bir “xəstəlik” olub ki, indi çox şükür, onun da əl-ayağı bilmərrə çəkilib. Bu, tələbələrin imtahanları qabağı yayılan “xahiş xəstəliyi” idi ki, kimsənin gözləmədiyi yerdə öz mutasiyalarını göstərməklə peyda olurdu.

***Keçmişə bir ekskurs.*** Bir zamanlar, yəni ötən əsrin 60-80-ci illərində təhsil alan gənclər aylarla, illərlə imtahanlara hazırlaşıb müvəffəq qiymətlər alardılar. Yəni o dövrlərdə imtahanlar insanlara stress deyil, əslində, bir bayram əhval-ruhiyyəsi gətirərdi. Ovaxtkı gənclərin imtahanlarında təkcə özləri deyil, bütün qohum-əqrəba da həyəcan keçirir, imtahan verəcək cavan da cəmiyyətin ondan nə gözlədiyini bütün məsuliyyəti ilə başa düşərək gecəsini gündüzünə qataraq hazırlaşırdı. Və beləcə də bu gün bəzi sahələrdə qıtlığı hiss edilən yaxşı mütəxəssis çətinliyi olmazdı. Həmin dövrdə çəkdiyi zəhmətə görə əla qiymət alan hər tələbənin dostlarından və müəllimindən aldığı təbriklər isə onun üçün ən böyük mükafat idi. Amma birdən-birə nə oldusa zəmanə dəyişdi və adamlar başladı bu gül balaların başının altına yastıq qoymağa: uşaqlar imtahanlara arxayın getsin deyə, tanışlar tapıb, xahişlər etməyə. Və bir də gözümüzü açıb gördük ki, itirdiyimiz qazandığımızdan qat-qat çoxdur. Amma halbuki o dövrdə də hər kəs yaxşı təhsil alıb cəmiyyətə faydalı olmağın ümumi inkişafa gedən yeganə yol olduğunu həmişə vurğulayırdı.

Şükür ki, bir zamanlar təhsildə çoxlarının aludə olduğu bu “xahiş” söhbətindən artıq yaxa qurtardıq. Cəmiyyətdə aparılan islahatlar, xüsusən elektron təhsil layihələri buna son qoyub. Amma onu da deyək ki, bu mövzu hamını narahat edirdi. Yəni bu, cəmiyyətimizdə bir zamanlar hamını narahat etmiş toylarda yerə pul səpələmək və yaxud ehsan süfrəsinə banan düzmək kimi bir eybəcər hal idi. Yəni belə hallardan imtina olunması cəmiyyətin öz sosial sifarişi ilə mədəni inkişafın məntiqi nəticəsində mümkün oldu. Çünki gördük ki, belə xahişlər ilboyu çəkilən bütün zəhmətlərin üstündən xətt çəkən, əyrini düzə, yaxşını pisə, zəifi güclüyə qatıb-qarışdıran, haqq-ədaləti yerə vuran kor bir gürz kimi öz qurbanlarını bir-bir məhv edən bir “xəstəlik” imiş.

İndi oturub düşünəndə bir sual yaranır: biz imtahana girəcək uşağımıza tutma “dayı” axtarmaqla, əslində, nəyi xahiş edirdik? Görəsən, tapşırıqla oxuyan gəncə bir minvalla iş tapanda onun vəzifəsini kim yerinə yetirəcəkdi? Ya belə tələbələr gələcəyin həkimi olsaydı? Düşünmək belə, çox çətindir. Onda həmin dekanlar və ya həmin qara siyahı tutan dosentlər köməyə gələcəkdilərmi? Deməli, sadəcə, dırnaqarası dostluq xatirinə etdiyimiz bu xahişlər, əslində, “bizim bu ərköyünü savadsız və qabiliyyətsiz edin” xahişi olub.

Bir də bu imtahan xahişini kim icad etmişdi, heç ağlagələn deyil. Görmüşük ki, məsələn, ustaya xahiş edəsən, suvağı divara düz çəksin, ya da restoranda xidmətçiyə xahiş edəsən, qonaqlara qarşı diqqətli olsun və sair. Yeri gələndə bir iş üçün xahiş eləmək, əslində, bir nəzakət və mədəniyyətdir. Məncə, bu tip xahişlər hər şeyin yaxşısı üçündür. Bəs söhbət cəmiyyətə yararlı insan yetişdirilməsindən və ya onun sağlamlığından gedirsə necə? Görəsən, buradakı xahişi nə üçün edirdik? Düzdür, zaman öz sözünü deyir və təhsildə, xüsusən biliklərin qiymətləndirmə sistemində aparılan islahatlar və insanlarımızın təhsilə münasibəti də bütün bunları kökündən dəyişdirib. Artıq gənclərimiz 600 bal həddini ötmək üçün yarışır, valideynlər də yalnız övladlarının uğuru üçün çalışırlar. Beləcə, cəmiyyətdə ictimai düşüncənin dəyişilməsi ilə uzun zaman hamının əziyyət çəkdiyi bir problem səssiz-səmirsiz ortadan yox olub getdi. Amma təəssüf ki, xahiş etmək və ya xahiş ummaq “xəstəliyi” tamamən yox olmayıb. Sağlamlığımızı etibar etdiyimiz bəzi həkimlərə edəcəyimiz xahişləri, görəsən, hansı elektron vasitə ilə əvəz etmək olar? Hətta bəzən düşünürük, söhbət insan həyatından gedirsə, nəyə görə xahiş olunmalıdır? Bəs Hippokrat andı? Bəs Azərbaycançılıq, bəs vətənə xidmət?! Və yaxud avtomobildə yol gedərkən çox tez-tez qarşılaşdığımız və hətta özümüzün də bəzən iştirakçısı olduğumuz tipik bir mənzərəni götürək. Bəli, hansısa səbəbdən yol polisi əməkdaşları bizi saxladıqda bir çoxumuzun dərhal telefona əl atıb kiməsə xahiş etdirməyimizi deyirəm. Görəsən, kiçik bir qayda pozuntusuna görə dövlətin büdcəsinə cərimə ödəmək bu qədərmi çətindir? Ya kiməsə zəng edib, xahiş-minnət etdirməkdənsə, olmazmı ki, heç qaydaları pozmayaq? Axı riskli hal heç bir xahişi qəbul etmir. Hər halda bu sahədəki xahişlərin yaratdığı problemlərin daha sonra hansı yeni problemlər də doğurduğu faktı ilə hər kəs razılaşar. Yaxud sığorta agenti qapımızı döyüb icbari sığortahaqqını xahiş edəndə biz də dərhal ondan xahiş edirik ki, bir az möhlət ver. Ola bilər ki, bizə bir həftə, yaxud bir ay möhlət versinlər. Bəs gözlənilməz bir sığorta hadisəsi baş versə necə? Onda kimə xahiş edəcəyik? Bu sualın cavabı isə yoxdur.

Hər halda belə xahişlərin yanında ilk baxışda kiçik görünən, amma bəzən adamların əsəblərini yerindən oynadan hallara fikir verməmək də olar. Amma şəhərdəki iri ticarət mərkəzində kassaya növbəyə durmuş çox deyil, cəmi beş-altı nəfərin başı üstündən adlayıb keçməyə çalışan bəzi ərköyünlərə adamların verdiyi qiymətə biganə qalmaq olmur.

*Bəli, asan işlərimizi çətinliyə salan belə xahişlərə hələ də rast gəlirik. Amma tam əminik ki, onlar da ümumi inkişafımızın fonunda bir gün tamamən yox olacaq. Bir zamanlar təyyarəyə bilet almaq üçün aviakassanın ətrafında dolaşan tanışları axtarıb xahiş-minnət etdiyimiz kimi. Bu gün nə qədər qəribə görünsə də, 15-20 il əvvəl bu da olub.*

**Əli CABBAROV**

*Sağlam həyat*

## Hansı yaşda və hansı saatda məşq etməliyik?

***Sağlam həyat tərzini özündə formalaşdıran ən böyük amillərdən biri də insanın yaş dövrlərinə uyğun olaraq məşqetmə saatlarıdır. Bəzən uyğun olmayan bir vaxtda edilən məşq sağlamlığa zərər vurur.***

### *Yaşlı nəsil üçün məşq saatları*

İlk olaraq yaşlı nəslin idmanetmə vaxtlarını nəzərdən keçirək. Həkimlər araşdırmalar zamanı müəyyən ediblər ki, 50 yaşdan sonra idmana başlayan insanlarda müəyyən həssaslıq yaranır. Yatmaq artıq yaşlı nəsildə vaxt itkisi kimi dəyərləndirildiyindən onların məşq vaxtlarının səhər saat 6-10 arasında olması daha məqsədəuyğundur. Çünki artıq formalaşan və öz funksiyasının kulminasiya nöqtəsində olan orqanizm daha çox təmiz hava tələb edir, böyrəklərin fəaliyyəti artır. Bu vaxtda ağır idmana girmək böyrəklərin iş tempini dəyişdirir, tarazlığı pozur. Bu zaman idman edən kəs bir stəkan isti suya iki qaşıq alma sirkəsi qatıb ılıq hala gəldikdən sonra içsə, bədəninin gümrahlığına nail ola bilər. Qlükoza və amin turşusu maddələri qanda müəyyən nisbətlərdə artır, fəaliyyət üçün enerji yaranır. Bu vaxtlarda yeyiləcək qida maksimum həzm olunur. Karbohidratlar maddələr mübadiləsi tərəfindən bundan sonrakı zaman mərhələlərində şiddətlə ehtiyac olan enerjiyə çevrilir.

Bu yaş dövründə qan təzyiqi və ürək təzyiqi artır. Yüksək təzyiqi və ürək problemi olanların bu vaxtda problem yaşaya biləcəyi səbəbindən idman edilməməlidir. Xüsusilə ürək problemi olanlar damar sərtləşməsi və tıxanması kimi ölümcül hadisələri yaşaya bilərlər. Belə problemi olan insanların saat 10-dan sonra idman məşqləri etməsi məsləhətdir. Həmçinin bu yaş təbəqəsinə aid insanların axşam saatlarında yürüş və ya yüngül qaçış etmələri də kifayətdir.

Təbii ki, göstərilən bu saatlarda uşaqların, xüsusilə 6-10 yaşlı uşaqların idman etməsi qadağan olunur. Çünki onlarda bədənin güc və dözmə imkanı azdır.

### *Uşaqları özümüz qoruyaq!*

Valideyn övladının sağlam olmasını, idmançı kimi yetişməsini arzulayır. Elə buna görə də bir çox valideynlər övladlarını 5-14 yaş arasında hər hansı idman növü ilə məşğul olmağa sövq edirlər. Təbii ki, bilinməyən hallar nəticəsində azyaşlı uşaqlarda müəyyən problemlər yaranır. Bu yaşda uşaqlar daha çox gün ortasında məşq etməlidirlər. Eyni zamanda onlar üçün seçilən idman növləri də yaşlarına uyğun olmalıdır. Məsələn, uşaqların akrobatika, gimnastika, üzgüçülük və bu kimi növlərə 5 yaşından, döyüş növlərinə isə daha yuxarı yaşlarından başlaması düzgündür. Həkimlər qeyd edirlər ki, azyaşlı uşaqlar 5 yaşdan tez idmanla məşğul olsalar, sağlamlıqlarında müəyyən problemlər yaranar. Azyaşlı uşaqların sümükləri zəif olduğuna görə yüklənmələr zamanı həmin sümüklər deformasiyaya uğraya bilər. Ona görə akrobatika və gimnastika ilə uşaqlar 5 yaşından məşğul olmalıdırlar. Valideynlər uşaqlarını hər hansı idman məktəbinə yazdıran zaman tələsməməli, uşağın bədəninin və fiziki durumunun hansı idman növünə daha uyğun olduğunu müəyyənləşdirməlidirlər. Məsələn, elə uşaq var ki, oynaq və əzələləri möhkəmdir, nə qədər yumşaltmağa çalışsan da, alınmır. Ona görə akrobatika və gimnastika ilə məşğul olmaq istəyən uşaqların oynaqlarının yumşaqlığı və onların bədəninin kiçik test məşqlərinə cavabına nəzər yetirmək lazımdır. Əgər məşqçi uşaqda irəliləyiş görsə, onun bu növdə məşqinə etiraz etməz.

Digər tərəfdən, valideynlər uşaqlarını idmana apararkən, ilk növbədə, onların bu növə maraq və həvəslərini, motivasiyalarını, gələcək plan və məqsədlərini öyrənməlidirlər. Uşaqların 5-6 yaş arasında akrobatika və üzgüçülük kimi növlərlə məşğul olması onların çevik və cəld olmasına şərait yaradır. Nəticədə, uşaq 9-14 yaşında digər növlərə hazır olur. Onların isə ən uyğun məşq saatları 14-17 aralığıdır. Bu vaxt, adətən, bədənin enerjiyə qovuşduğu zamandır. Bu zaman təkrar aktivləşmə başlayır, bədəndə istilik düşür və uşaqlar daha az tərləyir. Həmçinin bədənin dayanıqlığı və dözümlülüyü artır, daxili və xarici orqanların fəaliyyəti yüksək olur. Qüvvət artımı və oksigen xərclənməsi yüksəlir.

### *Hər saat məşq etməyə uyğun təbəqə*

Gənc nəsil üçün (18-35 yaş) idman etmək həyatdan zövq almaq kimidir. Çünki bu dövrdə insanın özünəməxsus xüsusiyyətləri, hiperaktiv olub-olmadığı aydın bilinir. Sakittəbiətli, yaradıcılığa həvəsi olan insan aqressiv sayılan döyüş idman növləri üzrə məşqə gedərsə, onda müəyyən aqressiya yaranacaq. Əksinə, hiperaktiv, daim hərəkətdə olan, bir yerdə dayanmayan insan daha hərəkətli idman növlərini seçməlidir. Sakittəbiətli insanların isə daha çox seçdikləri idman növləri üzgüçülük, gimnastika, şahmat olur.

Gənc nəsil idmanla daha çox saat 17-19 arasında məşğul olmalıdır. Səbəblərinə gəlincə, yuxu impulsları günorta vaxtı güclənir və bu saatlarda tamamilə “məhv” olur. Bədən formasını yığır. İstirahət etmiş bədəni bir qədər gücə salmaq, aktivliyi artırmaq məqsədəuyğun olur. Axşam yeməyindən öncə məşq, ardınca isə vitaminli meyvə-tərəvəz bədəndə immuniteti artırır. Bu saatlar ürəyi zəif, təzyiqi aşağı və müəyyən problemləri olan 35-50 yaşlı insanlar üçün məşq etmək düzgün deyil. Çünki bu saatda təzyiq və nəbz düşür, bədən istirahət etməyə ehtiyac duyur. Həzm orqanları yavaşlamağa başlayır. Bu vaxtlarda çox ağır qidalar qəbul edilməməlidir. Çünki mədənin həzmetmə gücü zəifləyir.

**Ceyhun MƏMMƏDOV**

***Muxtar respublikada ahılların sosial müdafiəsinin gücləndirilməsi, cəmiyyətə inteqrasiyası, habelə sağlamlıqlarının qorunması daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə davamlı tədbirlər görülür, həmin qəbildən olan insanlara tibbi və sosial reabilitasiya xidmətləri göstərilir.***

## Ahıllar evinin sakinlərinə tibbi xidmətin göstərilməsi davam etdirilir

Tənha ahıllara göstərilən dövlət qayğısının ifadəsidir ki, Şahbuz şəhərindəki Ahıllar evində sakinlərin rahat yaşaması üçün hər cür məişət şəraiti yaradılıb. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Tibbi-Sosial Ekspert Komissiyasının həkimləri mütəmadi olaraq Ahıllar evinə gələrək sakinləri müayinədən keçirir, müalicələrinə köməklik göstərirlər.

Tibbi-Sosial Ekspert Komissiyasının, Göz Xəstəxanasının və Protez-Ortopedik Bərpa Emalatxanasının ixtisaslı həkimləri növbəti tibbi xidmət göstərmək məqsədilə Ahıllar evində oldular. Həkimlər sakinləri tibbi yoxlamadan keçirib, onlara tibbi məsləhətlər veriblər.

Ahıllar göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## “Şahin” hərbi-idman oyunlarının rayon birinciliyinə yekun vurulub

*Culfa rayonundakı “N” hərbi hissənin idman bazasında rayonun ümumtəhsil məktəblərinin komandaları arasında keçirilən “Şahin” hərbi-idman və turizm oyunlarının rayon birinciliyinə yekun vurulub.*

Birincilikdə 13 komanda mübarizə aparıb. Yarış təsdiq olunmuş əsasnaməyə uyğun olaraq 8 növ üzrə keçirilib. Culfa Rayon Gənclər və İdman İdarəsinin rəisi Ümüd Həsənli, Təhsil Şöbəsinin metodisti Səbuhi İbrahimov və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Culfa Rayon Şöbəsinin əməkdaşı Turan Bağırlı çıxış edərək belə tədbirlərin əhəmiyyətindən danışıblar.

Saltaq kənd tam orta məktəbinin komandası birinci yerə layiq görülüb. Əbrəqunus kənd tam orta məktəbinin komandası ikinci, Bənəniyar kənd tam orta məktəbinin komandası isə üçüncü olub.

Qalib komandaya və müxtəlif növlərdə fərqlənən idmançılara təşkilatçılar tərəfindən diplom, kubok və hədiyyələr təqdim edilib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Sara Əzimova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 250